# İştirakçılar üçün Məlumat Vərəqi

GECKO

GlobalSurg | NIHR Global Health Research Unit on Global Surgery

## GECKO nədir?

Öd kisəsi xəstəliklərinin müalicəsində tətbiq edilən laparoskopik xolesistektomiya əməliyyatlarının təhlükəsiz icra edilməsində beynəlxalq səviyyədə müxtəlifliklər mövcuddur. Lakin bunlar yaxşı öyrənilməmişdir. Belə bir boşluğu doldurmaq məqsədilə, GECKO (Xolesistektomiyaya bağlı biliklərin və nəticələrin qlobal miqyasda dəyərləndirilməsi) tədqiqatı həyata keçirilir.

## Tədqiqatda iştirak etmək nələri əhatə edəcək?

- Məlumat toplamaq məqsədilə sizin xəstəxanada aparılan müalicə prosesiniz sadəcə izlənəcəkdir.
- Toplanılacaq məlumatlara daxildir:
    - Tibbi məlumatlar - gizliliyi təmin etmək məqsədilə tam anonim şəkildə
    - Xolesistektomiya tarixçəsi – diaqnoz, əməliyyat və əməliyyatdan sonrakı sağalma
- Tədqiqatda iştirakınız əlavə müayinələr və ya prosedurlar tələb etmir, müalicənizi dəyişdirməyək.
- İştirak etmək istəyirisizsə, razılıq vərəqini imzalamalısınız.

## İştirakçılar üçün risklər və faydalar nələrdir?

- Bu tədqiqatda iştirak etmək sizin müalicənizlə bağlı verilən qərarlara və müalicənin gedişinə təsir etməyəcək.
- İştirakçılar üçün əlavə risk qeyd edilmir.
- Sizin məlumatlarınız xolesistektomiya əməliyyatlarının standartlaşdırılması və xəstələr üçün daha yaxşı nəticələrin əldə edilməsində çox faydalı olacaqdır.

## Əlavə məlumat

Tədqiqatla bağlı hər hansı sualınız olarsa həkiminizlə əlaqə saxlamaqdan çəkinməyin.

Həmçinin yeniliklərdən xəbərdar olmaq üçün websaytımızı və twitter səhifəmizi ziyarət edə bilərsiniz.

## Bizimlə əlaqə saxlayın

Websayt: globalsurgeryunit.org

Twitter: @gecko_study

Email: geckostudy@gmail.com